

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 158 (24.295)

*31 avqust 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik

## Naxçıvanda Türkiyənin Zəfər Bayramı qeyd edilib









Avqustun 30-da Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun təşkilatçılığı ilə konsulluğun iqamətgahında tədbir keçirilib. Əvvəlcə Azərbaycan və Türkiyə respublikalarının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki qardaş ölkənin Dövlət himnləri səsləndirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya və digər rəsmi şəxslər iştirak edib.

Tədbirdə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın təbrik məktubu oxunub.

Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək Zəfər Bayramı münasibətilə təbriklərini çatdırıb, dövlət başçılarımızın ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərini daha yüksək səviyyədə inkişaf etdirdiyini vurğulayıblar.

Bildirilib ki, bir millət, iki dövlət və tək yumruq müstəvisində inkişaf edən Azərbaycan-Türkiyə münasibətləri bölgədə yeni reallıqlar yaradıb.

Tədbirdə Türkiyənin şanlı zəfər tarixindən bəhs edən videoçarx nümayiş etdirilib.

Zəfər Bayramı tədbiri bədii hissə ilə davam edib.

**"Şərq qapısı"**

## Baş konsul Asip Kaya: "Naxçıvanda çox önəmli layihələr həyata keçirəcək, xalqlarımız və ölkələrimiz arasındakı birliyə töhfə verməyə çalışacağıq"

Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü Naxçıvanda da geniş şəkildə qeyd olunub. Bu münasibətlə keçirilən tədbirdən sonra Türkiyənin Naxçıvandakı Baş konsulu ***Asip Kaya*** Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Gününün əhəmiyyəti, Azərbaycan və Türkiyə respublikaları arasında qardaşlıq, dostluq münasibətləri, gələcək əməkdaşlıq əlaqələri barədə fikirlərini "Şərq qapısı" qəzeti ilə bölüşüb: – Bu gün 30 avqust – Zəfər Bayramımızı qeyd etdik. Bilirsiniz ki, 30 avqust zəfəri türk tarixində çox önəmli bir dönüş nöqtəsidir. Yunanlara qarşı qazandığımız bu zəfər sonrası "Lozanna" müqaviləsi imzalandı və Türkiyə Cümhuriyyəti yenidən müstəqil bir dövlət olaraq dünya səhnəsinə çıxdı. Bu baxımdan 30 avqust bizim tariximizin ən önəmli dönüş nöqtələrindən biridir. Bu gün Naxçıvanda gözəl bir formatda bayramımızı qeyd etdik, çoxlu qonaqlarımız oldu. Səlahiyyətli nümayəndə Fuad Nəcəfli başda olmaqla bütün dövlət və hökumət nümayəndələri, naxçıvanlı qardaşlarımız, mətbuat üzvləri, buradakı iş adamlarımız bu tədbirdə iştirak etdilər. Bayramımızı, bu coşqunu bizimlə paylaşdıqları üçün təşəkkür edirəm. Bu il Cümhuriyyətimizin 100-cü ildönümüdür. 29 oktyabrı da böyük bir coşqu içərisində, yenə burada naxçıvanlı qardaşlarımızla birlikdə qeyd edəcəyimizə ümid edirik.



Asip Kaya Türkiyə-Azərbaycan əlaqələrindən, Naxçıvanın bu əlaqələrdəki rolundan da bəhs edərək deyib: – Mən burada fəaliyyətə başladığımdan bəri Türkiyə ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələri hər sahədə genişləndirməyə çalışıram. Naxçıvandan Türkiyəyə və ya Türkiyədən Naxçıvana uzun illərdir, geniş tərkibli işgüzar səfərlər olmayıb. Türkiyədən çox sayda iş adamı və ya müxtəlif qruplar buraya səfərə gəlirlər. İnşallah, bu səfərlərin intensivləşməsinə dəstək olacağıq. Gələcəkdə rəsmi səfərlərin də çox olacağına ümid edirik. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələr gələcəkdə çox sürətlə inkişaf edəcək. Çox önəmli layihələri həyata keçirəcəyik. "Ziraat" Bankı açılacaq. Türkiyə-Naxçıvan ticarət dərnəyi qurmaq istiqamətində hazırda işlər davam edir. Gələcək həftə iş adamlarından ibarət böyük bir qrup Türkiyədən buraya gələcək, müxtəlif araşdırmalar aparacaqlar. Dediyim kimi, münasibətlərimiz hər sahədə inkişaf edir, biz də Baş Konsulluq olaraq burada başda səlahiyyətli nümayəndə olmaqla bütün dövlət rəhbərləri ilə gözəl əlaqələr qurmuşuq. Xalqlarımız və ölkələrimiz arasındakı birliyə əlimizdən gəldiyi qədər töhfə verməyə çalışırıq. Bu il həm Türkiyə, həm də Azərbaycan üçün çox önəmlidir. Türkiyə Cümhuriyyətinin yaradılmasının, eyni zamanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümüdür. Ulu Öndərlə bağlı bir çox tədbirlər keçirilir. Gələcək aylarda biz də bu münasibətlə bir neçə tədbir təşkil etməyi nəzərdə tuturuq, inanırıq ki, həmin tədbirləri yüksək səviyyədə keçirə biləcəyik.

✍ **Nail ƏSGƏROV**

## "Heydər Əliyev İli" çərçivəsində növbəti tədbir keçirilib



Ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar Culfa Rayon İcra Hakimiyyəti və rayon prokurorluğunun birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin Culfa şəhərinin mərkəzində yerləşən büstü önünə gül dəstələri qoyub.

Sonra tədbir Culfa Rayon Mədəniyyət Sarayında davam etdirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Sara Hüseynovanın, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sədri Qadir İbrahimovun və rayon prokuroru Afət Kərimlinin çıxışları dinlənilib. Bildirilib ki, Ulu Öndər Heydər Əliyev ölkəmizdə rəhbərliyinin hər iki dövründə Azərbaycanın inkişafı üçün ciddi səylər göstərib, məqsədyönlü tədbirlər həyata keçirib. Culfa rayonunun da müasir yaşayış məntəqəsinə çevrilməsi görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi quruculuq siyasətinin bəhrəsidir.

Sonra "Heydər Əliyev salnaməsi: Qanun naminə" filmi nümayiş olub.

✍ **Aidə İBRAHİMOVA**

# Nəsimişünas alman alim Maykl Reynhard Hess ilə Nəsimi dünyasına sentimental səyahət

*"Məndə sığar iki cahan, mən bu cahana sığmazam..." kəlamları ilə ölməz Nəsimi nəinki Şərq alimlərinin, hətta Qərb elm adamlarının yaradıcılığına sığmayan yaradıcı dünyası ilə bütün dövrlərdə araşdırma mövzusuna çevrilmişdir. Budəfəki müsahibimiz 12-18 avqust tarixlərdə Naxçıvanda keçirilən "Heydər Əliyev – 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsinin qonağı olmuş, 130-dan çox elmi məqalənin müəllifi, türk dillərindən klassik Şərq poeziyasının tərcüməçisi, Azərbaycanın haqq savaşında Böyük Zəfərin başlanğıcı olan 2016-cı ildəki Aprel döyüşlərindən sonra qələmə aldığı "Panzer im Paradies: Der Berg-Karabach-Konflikt zwishen Armenien und Aserbaidschan" "Cənnətdə tanklar: Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ konflikti" əsərinin müəllifi alman alim, filologiya elmləri doktoru* ***Maykl Reynhard Hessdir.***

O, ixtisasca türkoloq və eyni zamanda böyük şairimiz Nəsimi irsinin tədqiqatçısıdır. Berlin Azad Universitetində "İmadəddin Nəsimi irsi" fundamental araşdırmasını aparıb. 2005-ci ildə bu araşdırmaları bitirərək elmlər doktoru alimlik dərəcəsini alıb.



Qeyd edək ki, Maykl Hess xahişimizi nəzərə alıb ilk dəfə Naxçıvanda xüsusi olaraq "Şərq qapısı" qəzetinə müsahibə verməyə razılaşmışdı. Hazırda Berlin və Giezen şəhər universitetlərində Türkologiya kafedrasında çalışan müsahibimiz osmanlı, özbək, başqırd, tatar və Azərbaycan dillərini gözəl bilir.

Nuh yurduna ilk dəfə qədəm qoyan alimlə şəhərin insanı valeh edən təmiz və yaraşıqlı küçələrindən keçərək söhbət edə-edə Əcəmi seyrəngahına üz tutduq. Azərbaycan dilində tam səlis danışan müsahibimiz yolboyu ilk olaraq bunları bizə bildirdi: "Əslində, böyük klassiklərdən olan Nəsimiyə yanaşmam fərqli də ola bilərdi. Hər hansısa bir bədii nəsr əsəri həsr etmək və ya publisistik yanaşma kimi. Nəsimi mürəkkəb yaradıcılıq yolu keçmiş lirik şairdir. O, yaradıcılığa aşiqanə şeirlər ilə başlayıb, sonralar dövrünün siyasi, ictimai, əxlaqi mövzularında əsərlər yazıb, Azərbaycan ədəbiyyatı tarixində ana dilində yaranan fəlsəfi qəzəlin banisi olub. Nəsimi bizdə, yəni Almaniyada çox tanınmır və düşünürəm ki, orada məndən başqa tədqiqatçı kimi bu mövzuya yanaşan ikinci biri yoxdur. Bilirsiniz, Azərbaycan və başqa dillərdə Nəsimi haqqında roman yazılıb, hətta bədii film də, sadəcə, bu elmi mühitin, xüsusilə də dünya ədəbiyyatşünaslarının diqqətindən kənarda qalıb".

Maykl Hess qeyd etdi ki, Şərqdə olduğu kimi Qərbdə də hürufiliklə, o cümlədən Fəzlullah Nəiminin harada yaşayıb-yaratması ilə bağlı maraqlananlar var. Lakin Nəsimi barədə tədqiqatçı çox azdır. Məlumdur ki, Nəsiminin Azərbaycan, eləcə də fars və ərəb dillərində divanları vardır. Fars dilindən yüzdən artıq qəzəli bir italyan professor tərəfindən tərcümə edilib: "Bu hadisədən şəxsən çox qürurlandım. Ona görə ki, həmin professor mənə bir məktub yazaraq xüsusi təşəkkürünü bildirirdi. O qeyd edirdi ki, mənim Nəsimi ilə bağlı məqaləmi oxumaqla hürufi əqidəsi ilə daha yaxından tanış olub. Nəsimi nəinki əruz şairi, divan yazarı, ümumiyyətlə, bir mütəfəkkir və tarixi şəxsiyyət kimi müstəsna biri olub. Onun şəxsiyyətini, şeirlərini araşdıran hər kəs Nəsimini heç bir şairlə müqayisə edə bilməz".

"Nəsimi böyük şairdir, yoxsa Füzuli?" sualını Maykl Hess belə cavablandırdı: "Mən belə bir müqayisəni heç qəbul etmirəm ki, Nizami daha böyük şairdir, Füzulimi və yaxud digəri. Hər şairin öz dövrünə uyğun istək və tələbləri olmuş, imkanları daxilində də yazıb yaratmışlar. Onların hər birinin özünəməxsusluğu var. Füzuli:

*Canı canan diləmiş, verməmək olmaz, ey dil!*
*Nə niza eyləyim, ol nə sənindir, nə mənim –*

yazdığı halda, Nəsimi bundan fərqli olaraq deyirdi:

*Ey müsəlmanlar, mədəd, ol yari-pünhan ayrılır,*
*Ağlamayım neyləyim, çün gövdədən can ayrılır.*

Nəsimi digərlərindən həm xarakter, həm də üslub baxımından tam fərqlənir. Bu fikirlərin ən yüksək elmi səviyyədə təsdiqi ilə tez-tez rastlaşırıq. Bunun da dünyəvi səbəbləri vardır".

Nəsimi haqqında doktorluq işi yazmağa necə qərar verməsi ilə maraqlandıqda şərqşünas alim dedi: "Almaniyada elmlər doktoru, alimlik dərəcəsi almaq üçün doktorluq tezisindən sonra bir tezis daha yazmaq lazım gəlir ki, bunun adı habilitasiyadır. Mənə təklif gəldi ki, iki mövzu təqdim edim. Mən də dilşünas kimi təklif etdim ki, "Türk dillərində felin şərt şəkli" mövzusunu işləyim, çünki heç yazılmayan mövzu idi. Morfoloji cəhətdən araşdırmaq, müqayisə etmək istəyirdim, lakin bu mövzu haqqında yazmaq təklifim rədd edildi. Bildirildi ki, Maykl Hess, siz başqa bir mövzu götürüb tədqiqat aparın. Həmin dövrdə mən İstanbulda çalışırdım. O ərəfədə mən İtaliyadan Nəsimi şəxsiyyəti haqqında ensiklopedik məqalə yazmaq haqqında təklif aldım. Mövzu Nəsiminin həyatı, fikirləri, əqidəsi və inanclarından dönmədiyi üçün dar ağacına çəkilməsi idi. İstanbulda imkanlar geniş olduğundan başladım Nəsimi haqqında araşdırma yazıları yazmağa. Təbii ki, onun şeirləri diqqətimi cəlb etdi, amma, təəssüf ki, bu poetik nümunələrdən heç nə başa düşmürdüm. Çünki o vaxt türk, osmanlı, başqırd, tatar dillərindən fərqli olaraq Azərbaycan dilini elə də bilmirdim. Bir də ki əruz divan ədəbiyyatı məndə hələ elə də güclü maraq oyatmamışdı. Sadəcə, hələ bir qisim sözləri başa düşə bildiyim üçün onların mənasını öyrənməyə çalışırdım. Çünki bu şeirlərdə bir işıq olduğunu anlayır və bu işıq cazibəli olduğundan onu çözmək qərarına gəlmişdim. Bu artıq maraq idi və fikirlərimi istər-istəməz üstələdi. Nəhayət, qərar verdim ki, mənim doktorluq mövzum Nəsimi ilə bağlı olsun. Nəticədə, onun Azərbaycan, fars dillərində yazdığı divanlarının da morfoloji, sintaksis tərəfdən izahını ortaya çıxardım.

Nəsiminin yazdıqlarına nəzər salsaq, görərik ki, Şərqdə Qərbə çox yaxındır. Mənim yazdıqlarım, bəlkə də, bir başlanğıc idi. Əvvəl 10 ədəd əlyazmasını tapa bildim və bunlar ən qədim əlyazmalar deyildi. Axtarışlarım nəticə vermirdi, tapa bilmirdim, buna vaxt da yetmirdi. Düzdür, digital mühitdən müəyyən şeylərin əldə olunması asandır. Türkiyədə Nəsimi əlyazmalarının elektronlaşmış forması mövcuddur. Hər kəs götürüb asanlıqla istifadə edə bilir. Amma bu, araşdırmalar üçün kifayət etmir. Zamana çox ehtiyac vardır ki, böyük bir enerji ilə çalışasan. Bu zaman 10 il, hətta 20 il də ola bilər. Çünki böyük bir dünyadır Nəsimi yaradıcılığı. Onu öyrənmək üçün ədəbiyyatşünaslığı, ilahiyyatçılığı, yeri gələndə musiqişünaslığı da bilmək lazımdır".

Maykl Hess "Nəsimi dünyasını nəyə bənzədirsiniz?" sualımıza cavab olaraq dedi: "Nəsimi dünyası gur bir bulaq kimi axır və düşünürəm ki, onun araşdırılmasına 100 il də kifayət etməz. Bəlkə də, Nəsimi dünyasının araşdırılması üçün çoxlu maddi vəsait ayrıla bilər, lakin qeyd edim ki, yüksək mənəvi hisslər olmasa, bu, qeyri-mümkündür. Tamamilə araşdırılandan sonra, bəlkə də, biz anlayarıq ki, Nəsimi bizə nəyi çatdırmaq istəyirdi. O, həyat, cəmiyyət haqqında açıq deyilməsi qorxulu olan tənqidi fikirlərini aşiqanə misralar və ya təbiət təsvirləri içərisində söyləyib. Nəsiminin bədii yaradıcılığı Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələdir. Şəxsi fikrimcə, Nəsiminin yaradıcılığı bir yana qalsın, bütün zamanlar üçün o böyük insanın özünü, həyat fəlsəfəsini kəşf etmək lazımdır. Təbii ki, o anlayırdı ki, hamımız kimi o da öləcək. Bəlkə də, düşünürdü ki, onun əsərləri o dövr üçün uyğun olmayacaq, kimsəni maraqlandırmayacaq. Amma onu da bilirdi ki, bir gün onun yaradıcılığı Günəş kimi, fərqli formada parlayacaq. Bir qərbli olaraq belə düşünürəm ki, siz Nəsimidən "Qurani-Kərim"i, hürufiliyi və hər bir şeyi çıxsanız belə, yenə də Nəsimi dünyasının özü dərin bir mövzu olaraq qalacaqdır. Fərqi yoxdur müsəlman və ya başqa bir dinin nümayəndəsi olsun, Nəsimi dünyası ilə tanış olan hər kəs bu barədə yenə də eyni fikirdə olacaq. Onun yaradıcılığı, əslində, kimsənin, xüsusilə də xalqın aqressiyasını qazanmaq üçün deyildi. Onun niyyəti insan üçün ən uca məqama yüksəliş etmək idi. O izah etmək istəyirdi ki, baxın mən sizin üçün ora qədəm qoydum, istəyirsiniz mənim şeirlərimi oxuyaraq siz də arxamca gələ bilərsiniz. Hətta bunun mübahisəsini də edərək bildirir ki, "Zahidin bir barmağın kəssən dönər həqdən qaçar, gör bu gerçək aşiqi sərpa soyarlar ağrımaz", yəni siz mənə kafir deyirsiniz, mənə yaram da xoşdur, yarım da, yəni məni asmaqla hədələyirsiniz, bəs siz kimsiniz? Haqq aşiqi qətiyyətlə bildirirdi ki, əqidəmdən dönmərəm. Araşdırmalarım zamanı bir şey də diqqətimi çəkdi ki, onun yazdıqlarını inkar edənlər belə onun şeirlərinin fövqəladə gözəl olmasının fərqində idilər. Bu məqamda qeyd edim ki, əruzun musiqişünaslıqla da əlaqəsi var. Klassik ədəbiyyatı, əruz vəznini yaxşı bilmədən bu araşdırmaları etmək mümkün deyil. Bayaq qeyd etdiyim kimi, klaviatura arxasında əyləşib bu araşdırmaları etmək asandır, amma bununla kifayətlənmək olmaz. Bir çox klassiklər var ki osmanlı dövründə onlara saray şairləri deyirdilər və onlar maddahlıq üçün nəsə yazırdılar. Nəsimi yaradıcılığında "Rızkı Maraşdan umarsan, xoş deyil" anlamını bəzən, yəqin ki, Maraşa gedib pul qazana bilmədikləri üçün belə yazdığını düşünənlər də var. Amma bu, qətiyyən belə deyil. O bildirmək istəyirdi ki, orada ömür sürmək xoş deyil. Nəsimi sırf öz dövrü üçün yazıb yaradaraq laməkan olub. Mənim dünyamda o insanlığın şairidir. Nəsimi poeziyasında libas dəyişkənlik və ötərilik simvoludur, dünyəvi yalanın, bir-birini fasiləsiz əvəzləyən oyun və aldanışların təzahür elementidir, fantastik emosionallığa malik bədii işarədir. Əgər belə olmasaydı, Nəsimi dünyanı yaşıl – yəni ülvi bir dünyadan seyr etməzdi. Seyid İmadəddin Nəsimi bütün ömrü boyu özündən sıyrılmaq, ayrılmaq, qopmaq, ən əsası da özünü qıraqdan müşahidə etmək istəyi ilə hərəkət etmişdir. Çünki Nəsimi kimi biri üçün bu məziyyətlər xarakterik bir simvol halını almışdır. Çünki hal əhli birinin özündən çıxıb, kənarlaşıb özünə baxmaq, öz içinə boylanmaq, ruhdan bədənə tam şəkildə nüfuz etmək, orada rahatlanmaq, "ərimək", "qərq olmaq" marağı həmişə zövqlü bir intellektual oyuna bərabər sayılıb. Kamil insanın bütövləşmə və vəhdətivucud olmasının yolu buradan keçir. Həqiqi gerçəklik insanın öz iç dünyasının gerçəkliyidir. Təbii ki, bu gerçəkliyi də öz içində kəşf etmiş insan üçün sirri faş olmayan heç bir nəsnə qalmır. O məhz "ənəlhəq" söyləyən dilinin ucbatından kafir, müşrik adlandırılıb. Nəsimi nə istədiyini bilir və şüurlu



surətdə ömrünün faciəvi sonluğuna doğru getdiyindən xəbərdar idi. O bundan nə inciyir, nə də peşmançılıq hissi keçirirdi".

Müsahibimlə söhbət o qədər maraqlı alınmışdı ki, zamanın necə keçdiyinin fərqinə varmamış, gün şaxə qalxaraq şölələri ilə yox, istisi ilə şəhəri qarsıb-qovururdu. Maykl Hess təklif etdi ki, söhbətimizi Şeyx Xorasan (Fəzlullah Nəimi) Xanəgahında Günəş qürub edərkən davam etdirək... Və budur, Əlincəqalanın ətəyində Nəsiminin ustadı uyuyur... Maykl Hessdən Nəsiminin təxəllüsünün anlamını soruşduqda bildirdi ki, "Nəsimi" təxəllüsünün mənası ilə şairin ideyaları və tale yazısı arasında qəribə bir əlaqə, bağlantı var. "Nəsimi" təxəllüsü "Nəim" sözünə həmahəng səsləndiyinə görə, şair Seyid Əli, yəni İmadəddin Nəsimi, Şərq mədəniyyəti ənənələrincə müridinə kəc baxmayıb və Nəimiyə bəslədiyi sevgisini, öz sədaqəti ilə birgə təxəllüsündə də simvolikləşdirib. Nəimi, yəni "Cənnət adamı" ləqəbi "Qurani-Kərim"də zikr edilən iki Cənnət bağından birinin adıdır. Hürufiliyin lideri, ustad Fəzlullahın təxəllüsü də buradan gəlir. "Nəsimi" təxəllüsü isə "nəsim" sözündən götürülüb. Ərəb dilində "nəsim" kəlməsindən səhər mehi anlamında istifadə olunur. Müsəlman mədəniyyətinin təzahüründə insan ruhunun təbiəti meh kimi təsəvvür gətirilir. "Nəimi" və "Nəsimi" təxəllüsləri bir-birinə həmqafiyə, lakin onlar arasındakı məna fərqi böyükdür. Biri konkret təsvirə malik məkanla bağlı, digəri isə laməkan. Nəsimi məhz bu məqamda Nəimi ilə qütbləşir və hətta onu üstələyir".

Həqiqətən, Nəsimi bir yeldir ki nə məkana sığar, nə bəyana gələr, nə yeri məlum olar, nə görkəmi, nə də qiyafəsi. Onun timsalında şəxsiyyət ilə təxəllüs eyniləşərək bir-birinə nüfuzu nəticəsində psixoloji fenomen yaradıb. Burada təxəllüs böyüyüb nəsimiliyə çevrilir və şairi öz içində əridir. Nəsiminin ömür dolanbaclarından boylandığımız zaman görürük ki, şair sanki bilərəkdən həyatını öz təxəllüsünün bəraətinə həsr eləyir. Bəlkə, elə buna görədir ki, Nəsimi bir yerdə lövbər salıb uzun müddət qalmağı heç cürə bacarmayıb, məkana, bəyana sığmadığını söyləyə-söyləyə səba yeli, sübh mehi kimi cümlə-cümlə, söz-söz cahanı dolaşaraq təxəllüsü şairdə yox, şairi təxəllüsdə yaşadıb.

Bu nəcib müsahibə üçün alman alim Maykl Reynhard Hessə dərin minnətdarlığımızı bildirərək Xanəgahdan ayrılarkən ağlıma gələn ilk fikir bu oldu: "Hürufilərin azadlıq simvolu, tərkidünyalılığı bu beytlərdə gizlidir:

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri laməkan mənəm, kövnü məkana sığmazam".*

**✍ Aidə İBRAHİMOVA**

## Ümumdünya Səhiyyə Təşkilatının nümayəndə heyətinin Naxçıvana səfəri başa çatıb







Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri Naxçıvana səfərlərinin 3-cü – sonuncu günündə Ordubad və Şərur rayonlarında oldular. Onlar rayonlarda yeni yaradılan Ailə Sağlamlıq mərkəzləri ilə tanış oldular. Qonaqlara muxtar respublikada Ailə Sağlamlıq mərkəzlərinin yaradılmasının məqsədi və əhəmiyyəti barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Səhiyyə Nazirliyinin tabeliyində olan kənd həkim ambulatoriyaları və kənd sahə xəstəxanalarının bazasında yaradılan publik hüquqi şəxs statuslu Ailə Sağlamlıq mərkəzləri tibbi xidmətin strukturunun düzgün qurulması, xidmətlərin səviyyəsinin artırılması və tibbi xidmətlərdən istifadədə əlçatanlığın təmin edilməsi məqsədi daşıyır.

Nümayəndə heyəti bu gün Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olub. Bildirilib ki, unikal müalicə mərkəzlərindən olan Duzdağ Fizioterapiya Mərkəzinin xidmətinin genişləndirilməsi və beynəlxalq xidmət standartlarına uyğunlaşdırılması üçün avqust ayında 2 ayrı beynəlxalq sertifikatlaşdırma təşkilatının ekspertləri mərkəzdə ilkin araşdırma aparmış, önümüzdəki aylarda mərkəzin beynəlxalq sertifikatla təmin edilməsi üçün işlərə başlanmışdır.

Qeyd edək ki, nümayəndə heyətinin səfəri dünən başa çatıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Jurnalistin qeydləri

# Mən torpağam...



*Torpaq! Yəqin ki, çoxumuz bu sözü bir gün ərzində dəfələrlə ifadə edirik. Bəlkə də, çoxumuz mövcudiyyətimizi borclu olduğumuz bu məfhuma bəsit bir yanaşma sərgiləyirik. Nəticədə, ona təbiətin bir hissəsi və hətta cansız bir varlıq olaraq baxanlar kifayət qədər çoxdur. Amma mövzuya başqa istiqamətdən yanaşmaq, bəlkə də, çoxlarının düşüncə və təsəvvürlərində dəyişiklik yaratmaq gücündədir. Əslində, həmişə bir parçası olduğumuz və nəhayətində ona qovuşacağımızı, yenidən onun bir hissəsi olacağımızı düşünəndə, ulularımızın, nənə-babalarımızın artıq çoxdan onun bir parçasına çevrildiyini anlayanda üstündə addımladığımız hər qarış torpağın nə qədər dəyərli, aziz olduğunu bir daha dərk etməli olursan. Xalq şairi Musa Yaqub məsələyə daha maraqlı bir çərçivədən yanaşaraq torpağa olan sevgisini daha fövqəladə və deyərdim ki, bəlkə də, məlum reallığı poetika ilə sintez edib bir az mistik şəkildə ifadə edərək yazırdı ki:*

*...Ölsəm də, qoynunda qoy ölüm ki, mən,*
*Çürüyüm, bir ovuc torpağın artsın...*



Vətənin bir ovuc torpağına çevrilmək, onun bir ovuc torpağını artırmaq, onunla qovuşub həmahəng olmaq belə bir arzuya çevrilə bilərmiş, deməkdir ki. Vətən torpağına sevgini, məhəbbəti, Vətən torpağının müqəddəsliyini, ululuğunu bundan daha yaxşı necə ifadə etmək olar ki?

Doğulduğumuz, üstündə addımladıqca yavaş-yavaş dizlərimizi bərkidən, qollarımıza qüvvət verən əbədi və əzəli mövzudur torpaq. O torpaq ki bizim milli şüurumuzda namusumuzun bir parçasıdır. O torpaq baba və dədələrimizin uyuduğu, ata-anamızın yollarına iz saldığı, xüsusi sevgi və ehtirama layiq olan evimiz, obamız, yurdumuz, ilk və son məskənimizdir. Müqəddəs bildiyimiz bu ərazilər, sadəcə, münbit torpaqlar deyil. Eyni zamanda qanımızı coşduran, üstündə güc aldığımız, düşünmədən canımızı fəda etməyə hazır olduğumuz Vətən torpağıdır!





Bizim təfəkkürümüzdə, dünyaya baxış bucağımızda və yaradılışa olan inamımızda torpaq kifayət qədər müqəddəs yerə sahibdir. Bunu xalqımızın inanclar sistemində də aydın görmək mümkündür. Təsadüfi deyil ki, yazqabağı çərşənbələrdən biri də məhz yaradılışın dörd ünsüründən biri olan torpağa həsr olunur. Dünyamızın yaranmasının mühüm amillərindən biri kimi götürülən torpaq sudan sonra ikinci maddi başlanğıcdır. Əski inanc sistemlərində torpaq həmişə qadın cildində təsəvvürə gətirilir. Dildən düşməyən "ana torpaq, ana Vətən" ifadələri də buradan doğulmuşdur. Torpağın meydana gəlməsi ilə Yer kürəsinin formalaşması başa çatır və təbiətdəki başqa maddi varlıqların meydana gəlməsinə zəmin yaranır. Əksər mifoloji sistemlərdə dünyada olan bütün mövcudatın maddi, əşyavi tərəfi öz mayasını torpaqdan götürür. Hər şey öz köklüyünü yerdən – torpaqdan başlayır. O bütün yaradılışın əsasında dayanır. Mifoloji sistemlərdə torpağın meydana gəlməsi ilə qarmaqarışıq xaos parçalanır. Həyat torpaqdan başlayır.

Biz həyatın başladığı, insanoğlunun ilk ayaq basdığı, məskən saldığı, yurd-yuva qurduğu kifayət qədər zəngin və müdrik torpaqlarda yaşayırıq. Mənim məmləkətim hər yaz ucsuz-bucaqsız yamyaşıl bir dəniz kimidir. Sinəsini al lalələr, rəngarəng çiçəklər bəzəyən, yaşıl meşələrə, rəngli torpaqlara sahibdir bu yurd yeri. Qışda qardan bir yorğanla örtülüdür bu bərəkətli torpaqlar. Neçə savaşlar, neçə qəhrəmanlıqlar görmüş, şahlara, hökmdarlara yurd-yuva olmuş, sərkərdələrə sinə gərmiş, burada nə həyatlar başlamış, nə ömürlər sona çatmışdır. Dildən-dilə dolaşan nağıllarla bəzənmiş diyardır bura. Hər qarışı tarixin canlı şahidi, hər qarışı mədəniyyət nümunəsi, hər qarışı sivilizasiyadan bir yadigardır. Hamısının şahidi isə torpaqdır. Bizə bağrından pay verən, bizi qoynuna alan, yurd-yuva olan, boya-başa çatdığımız, anamız qədər sevdiyimiz torpaq.

Nuhun binə saldığı bu müqəddəs məkan hər tərəfdən hündür dağlarla əhatələnmiş dərəni xatırladır. Ətrafımızda gördüyümüz göz işlədikcə uzanıb gedən görkəmli dağlar və torpaqlara can verən güclü çaylar xeyli zamandır, bu torpağı özlərinə məskən edib. Onlar bizdən çox qədimdirlər. Təbiət milyon illərboyu səbirlə, əzmlə indiki ekosistemi formalaşdırıb. Yaşadığımız təbiət bizə – yəni insana ana şəfqəti ilə yanaşaraq hər keçən gün yeni bir şey öyrədir. Min illər əvvəl insan bu torpaqlarda taxıl istehsalını kəşf etdi. Elə hər şey də bununla başladı... Təsərrüfatın inkişafı ilə bu torpaqlar mədəniyyətin inkişaf beşiyinə çevrildi. Torpaq öz nemətini, bətnindən yetişdirdiklərini insanoğluna pay etdi, onu qorudu. İnsanoğlu da torpağı qorudu. Yəqin ki, elə bu aspektdən yanaşan Xalq şairi Rəsul Rza məşhur "Mən torpağam" şeirində yazırdı:

*Mən torpağam, nemətimi, varımı*
*zəhmət sevən insanlarla bölərəm...*



Yaşadığımız bu torpaqların bir məziyyəti var; olduqca rəngli bir torpaq formasına, torpaq keyfiyyətinə və coğrafiyasına sahibdir bu yerlər. Bu torpaqlarda, bu iqlimdə yetişməyən çox az məhsul var. Ululardan ulu Qorqud Dədəmiz deyirdi: "Torpağı əkib-becərmirsənsə, qorumağa dəyməz, qorumursansa, əkib-becərməyə dəyməz". Bu fikirdən yanaşdıqda görürük ki, min illərdir ki, insanların tər tökdüyü bu torpaq heç vaxt zəhməti qarşılıqsız, əziyyəti bəhərsiz, torpağa tökülən təri zərsiz qoymayıb. Görülən hər bir işin qarşılığını qat-qat artıqlaması ilə geri ödəyib: sözün hər iki mənasında. Ona görə də bu yerlərin insanları həmişə torpağa bağlı olub, onu qoruyub. Torpağı sevmək, torpaqla ünsiyyət qurmağı bacarmaq, keçmişin təcrübələrindən yararlanmaq və onları gələcək nəsillərə ötürməyi bacarmaq lazımdır. Hər sonrakı nəsil torpağı əmanət aldığını və bu torpaqların hamımızın olduğunu dərk edərək davranmalıdır.

Torpaq, yaşayan bir dünya, içində yaşatdığı saysız-hesabsız üzvi maddə sayəsində bitkiləri qidalandıran, suyu süzən və mühafizə edən həyat mənbəyidir. Torpağın altında hələ də görmədiyimiz, bilmədiyimiz, bəlkə də, kəşf edilməyi, gün işığına çıxmağı gözləyən çox dəyərli xəzinələr, abidələr var. O hələ də bilinməyən sirləri qoynunda saxlayaraq, bəlkə də, qoruyur. Yəqin ki, nə zamansa onlar insanoğluna da bəlli olacaq. Nuh babamızdan qalan bu izlər torpağın nə qədər qədim və zəngin olduğunu göstərir.

*Mən torpağam, məni ataş yandırmaz;*
*tərkibimdə kömürüm var, külüm var.*

"Torpaq, uğrunda ölən varsa, Vətəndir!" deyiblər bir də. Bu torpaq neçə mübarizələrin, işğalların, üsyanların şahididir. Bu torpaq azadlıq uğrunda qəhrəmanlıqların, gələcəyə işıq tutan odlu-alovlu məşəl kimi yanan ürəklərin yurdudur. Bu torpaq uğrunda şəhidlərin qan tökdüyü, can alıb can verdiyi müqəddəs yerlərdir. Böyük türk şairi Mehmet Akif Ersoy "İstiqlal marşı"nda yazırdı ki:

*Basdığın yerlərə torpaq deyərək keçmə, tanı.*
*Düşün altındakı minlərcə kəfənsiz yatanı...*



Elə bu misralarda deyildiyi kimi, ayaq basdığımız hər qarış torpağın altında özünü bu torpağa fəda etmiş qəhrəmanların qanları, canları, yaşaya bilmədikləri arzuları, gerçəkləşdirə bilmədikləri xəyalları var. Özləri Vətən olan, Vətən torpağına qovuşan, torpağa çevrilən şəhidlərin izləri var. Bu torpağa qanı tökülən igidlərin yazdıqları tarix və etdikləri igidliklər Azərbaycanın müqəddəs torpağını daha da ulu edib. Onore de Balzak deyirdi: "Torpağa əkilən toxumlar içərisində ən çox məhsul verən fədailərin torpağa tökdükləri qandır". Bu torpaq, bu Vətən uğrunda minlərlə igid Vətən oğlu, Vətən qızı öz canından, qanından keçib, bu Vətəni qanıyla suvarıb. Sərt qayalarımız, bərəkətli torpaqlarımız onların qanıyla boyanıb al laləyə çevrildikcə şəhid qoxulu Vətən torpağı daha da qüvvətlənib, güclənib və müqəddəsləşib. Çünki torpaq qanla qarışanda Vətən olur.

44 günlük Vətən müharibəsindən sonra indi o torpaqlarda addım-addım, kərpic-kərpic bərpa edilən, qurulan şəhərlərə, kəndlərə sakinlərin geri dönüşü Böyük Qayıdışın bir parçası olmaqla yanaşı, yurda dönüş, Vətənə məhəbbət, torpağa bağlılıqdır. Torpaq da sevinir indi. Düşmən tapdağından azad olub öz doğma sakinlərini qarşılayır, çünki doğma səsləri eşitmək istəyir indi. Doğmaların, bu torpağın sahiblərinin, bu torpaq uğrunda canından keçməyə hazır olanların ayaq izləri ilə sinəsində cığırların açılmasını gözləyir indi. Şəhidlərin qanı ilə suvarılan o torpaq indi sevgi və məhəbbətlə yenidən çiçəklənən torpağa çevrilir və çevriləcək. Torpaqdan cücərən toxum kimidir bu sevgi. Bu toxum insanın ruhuna ana nəfəsi, dilə gətirilən ana kəlməsi ilə səpildikcə insanda ruhi sevgi başlayır. O sevgi böyüdükcə, özünü dərk etdikcə bu toxum cücərir, ruha yayılaraq əvəzedilməz duyğuya çevrilir.

Mete Xan torpağın dəyərini öz varislərinə belə ifadə edirdi: "Məndən yəhərimi istəyin – verim, atımı istəyin – verim, lakin heç kəs Vətənimdən bir qarış torpaq istəməsin – verməRəm". Ona görə də bu torpaq bizə ulu babaların mirası, gələcək nəsillərə əmanətdir. Deyirlər, torpaq sevdiklərimizi qoynunda saxladığı, bir ana kimi onlara yenidən bətnində yer verdiyi üçün onun ətri bizə bu qədər doğma və xoş gəlir. Hərdən düşünürəm ki, səbəbini heç bir halda dərk edə bilmədiyim torpaq ətrindən duyulan bu zövq, yəqin ki, həm də təbiətə, torpağa məxsusluğun, ona aid və bağlı olmanın, nəhayət, ona qayıtmalı olduğumuzun gətirdiyi bir duyğudur. Dərki yoxdur bəzi şeylərin. Səbəbini heç vaxt bilməyəcəyik...

*Bəziləri taleyimizin torpağa bağlı olduğunu deyər. Çünki, nəticədə, onun bir parçasıyıq. Bizim varlığımız dörd ünsürün vəhdətidir: odun, suyun, havanın və torpağın. Bununla belə bəzən özümüzü yarımçıq və ya tək hiss edə bilərik. Bax onda həmin dörd ünsürün birlikdə ruhumuza, varlığıma hopan duyğuya dirənib tənhalığa çarə, xoşbəxtliyə dəstək və bəlkə də, kədərə məlhəm olmaq kimi möhtəşəm bir gücü var. Nə də olsa, biz onların bir parçasıyıq və yenidən bir gün onlarla qovuşacağıq. Çünki mən torpağam...*

**✍ Məmməd BABAYEV**

## Qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüş olub



Avqustun 30-da Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) muxtar respublikada fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının (QHT) nümayəndələri ilə görüşü keçirilib.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva "Vətəndaş cəmiyyəti institutlarının hüquqlarının müdafiəsi: Ombudsman və qeyri-hökumət təşkilatlarının qarşılıqlı fəaliyyəti" mövzusunda çıxış edib. Qeyd edilib ki, Azərbaycan Respublikasında ictimai həyatın demokratikləşməsinin əsas istiqamətlərindən biri vətəndaş cəmiyyəti institutlarının inkişaf etdirilməsidir. Bu məqsədlə Ombudsman təsisatı fəaliyyətə başladığı dövrdən qeyri-hökumət təşkilatları ilə insan hüquqları sahəsində əməkdaşlıq əlaqələrinin qurulmasına daim önəm verir.

Vurğulanıb ki, ötən dövr ərzində Müvəkkil tərəfindən qeyri-hökumət təşkilatlarının hüquqi maarifləndirilməsi istiqamətində mühüm tədbirlər keçirilib, o cümlədən Müvəkkil təsisatı tərəfindən keçirilmiş tədbirlərdə onların nümayəndələrinin iştirakı təmin olunub. Həmçinin tədbirdə qanunvericiliyə əsasən qeyri-hökumət təşkilatlarının insan hüquqları pozulmuş şəxsin razılığı ilə Ombudsmana şikayət vermək hüququ da izah olunub.

Ombudsman Günay Rzayeva əlavə edib ki, 15 avqust 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının Zəngəzur dəhlizinin açılması ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət ünvanlaması yeni reallığa qədəm qoymuş ölkəmizdə QHT-lərin, ümumbəşəri və milli dəyərlərə önəm verən, dövlətin və xalqın maraqlarını hər bir şeydən üstün tutan vətəndaş cəmiyyətinin formalaşmasının göstəricisidir.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

*Bu gün muxtar respublikamızda elə bir sahə yoxdur ki, orada inkişaf, tərəqqi olmasın. Kəndlərdə yaşayan əhaliyə qayğı ilə yanaşılır, qarşılaşdıqları problem və çatışmazlıqlar yerindəcə həll edilir. Bu diqqət və qayğının nəticəsidir ki, sakinlərdə yurda, torpağa bağlılıq yaranıb. Onlar da bu qiymətli sərvətdən lazımınca bəhrələnir, torpağı özlərinə iş yeri hesab edirlər. Ruzi-bərəkətlərini oradan götürür, sağlam həyat tərzi keçirirlər. Bir sözlə, muxtar respublikamızın hansı kəndinə yolunuz düşsə, orada zəhmətkeş insanları görmək mümkündür.*



Diyarımızın ən böyük yaşayış məskənlərindən olan, bərəkətli torpaqlara sahib Şərur rayonunun kənd əməkçiləri əkinçilikdə zəngin təcrübə qazanıblar. Onlar hərtərəfli dövlət qayğısından və qazandıqları təcrübədən səmərəli istifadə edərək hər

# İnsan əməyi, torpaq isə çörəyi ilə tanınar



il uğurlu nəticələrə nail olurlar. Bu cəhətdən cari ildə tarlalar vaxtlı-vaxtında və yüksək aqrotexniki səviyyədə becərildiyindən yaxşı məhsul yetişdirilib. Ötən günlərdə torpağa baş əyən insanlarla elə iş başındaca əkin sahələrində görüşüb, həmsöhbət olduq. Muğanlı kənd sakini, ailə təsərrüfatçısı ***Bəhrəm Mirzəyev*** uzun illərdir ki, alın tərini torpağa qatıb zəhmətlə gün-güzəran qazanır.

O bildirdi ki, illərdir, əli iş tutandan əkib-becərməklə məşğuldur. Dövlətimiz kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirir. Onlar da bu qayğıdan bəhrələnib öz dolanışıqlarını təmin edirlər. Hər bitkinin özünəməxsus xüsusiyyətləri olduğunu deyən müsahibim bildirdi ki, cari ildə 23,5 hektarda buğda əkib, beş ton məhsul əldə edib. 12 hektarda isə qarğıdalı əkini aparıb. Bu bitkinin əkini üçün torpağın və texnikanın hazırlanması işləri, əsasən, payız aylarında həyata keçirilir. Torpağa düzgün qulluq edilərsə, o da zəhməti itirməz, əvəzində ikiqat məhsul verər. Qarğıdalıya tələbat da çox olduğundan çalışırıq ki, əkin sahələrini də ildən-ilə genişləndirək.

Müsahibim onu qeyd etdi ki, bu bitkinin xalq təsərrüfatında istifadə istiqamətləri çoxsahəlidir. Qarğıdalı xüsusilə də uşaqların sevimli qidası olmaqla yanaşı, onun dənindən un, yarma və konserv hazırlanır. Qarğıdalı saçaqlarının dəmləməsi isə böyrək xəstəliklərinin müalicə və profilaktikasında qiymətli təbii vasitədir. Qarğıdalı dəni qaramal və quş üçün ən qiymətli yemdir. Dənindən həm də qarışıq yem istehsalında istifadə olunur. Bu bitkidən çox keyfiyyətli silos alınır və qiymətli, qüvvəli, şirəli yem kimi istifadə edilir. Qarğıdalı silosu yaxşı həzm olunmaqla yanaşı, həm də pəhriz xüsusiyyətinə malikdir. Vitaminlərin sayına görə qarğıdalı yem bitkiləri arasında əvəzolunmaz yer tutur. Bir sələf bitkisi kimi də qarğıdalının əhəmiyyəti böyükdür. Gecikmiş və ya təkrar səpinlə qarğıdalının eyni sahədən bir ildə iki dəfə və daha artıq məhsulunu yığmaq mümkündür. Qarğıdalı, o cümlədən torpağı alaq bitkilərindən təmizləmək üçün də ideal sələf bitkisidir. Onun güclü kök sisteminə malik olması əkin sahəsində başqa alaq otlarının inkişafının qarşısını alır. Bitkinin gövdəsindən və yarpağından kağız, linoleum, şüşə qablar üçün süni tıxaclar, plastik kütlə və başqa məmulatlar da hazırlanmaqla bərabər, yem kimi də istifadə olunur.

Müsahibim deyir ki, oğlanları da əkin işlərində ona yaxından kömək edir. Dövlət dəstəyi ilə əkinçilikdə istifadə olunan texnikalar da satın alıblar. Həmin texnikaların köməyi ilə işləri həm yüngülləşir, həm də keyfiyyəti artır.

Hazırda qarğıdalı sahələrində yığım olduğu üçün zəhmətkeş kənd adamının birgünlük iş gününə şahidlik etdik və belə qənaətə gəldik ki, zəhmət çəkən hər kəs yaxşı yaşaya, dolana bilər. Belə bir el məsəli var: torpaqda izin olsun ki, süfrədə üzün olsun. Çünki torpaq adamı naümid buraxmaz. Və ən əsası torpaq bu gün Naxçıvan kəndlisi üçün ən yaxşı iş yerinə çevrilib. Bacarıb dövlətimizin yaratdığı bu şəraitdən istifadə edənlər öz gün-güzəranlarını qurmaqla bərabər, muxtar respublikada kənd təsərrüfatının inkişafına öz töhfələrini verirlər.

✍ **Ramiyyə ƏKBƏROVA**

Gəncliyimiz, gələcəyimiz

# Ölkəmizin etibarlı gələcəyi təhsilli gənclərin əlindədir

Cəmiyyətin inkişaf yolu təhsildən keçdiyindən, təbii olaraq təhsilin gücü bütün sahələrin inkişafına təsir göstərir. Bu gün Azərbaycanın təhsil sektorunda keyfiyyət dəyişiklikləri baş verir və özünün ictimai, iqtisadi, mədəni xarakteri ilə daha dərin köklərə malik olduğunu göstərir. Bu köklər isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər təhsil sisteminin fəaliyyətinin milli zəmində və müasir tələblər səviyyəsində qurulmasında əvəzsiz xidmətlər göstərmişdir. Və bu xidmətlər artıq neçə illərdir, öz bəhrələrini verir.

Hazırda Azərbaycanın təhsil sistemi dünyanın ən mütərəqqi ölkələrinin təhsil, təlim metodlarından istifadə etməklə təkmilləşdirilir, məzmun və struktur dəyişiklikləri aparılır. Bunun nəticəsində isə ölkəmizin etibarlı gələcəyini tam təmin edəcək savadlı, işinin öhdəsindən layiqincə gələn gənc mütəxəssislər yetişir. Təhsil sisteminin inkişafını hər tədris ilinin sonunda keçirilən qəbul imtahanlarının nəticələri də təsdiqləyir. Bu baxımdan Naxçıvan gənclərinin yüksək göstəricilər əldə edərək ölkə miqyasında öncül yerlər qazanması təqdirəlayiq haldır. Cari ildə Şahbuz rayonunda da yüksək nəticə göstərən abituriyentlər olub. Həmin abituriyentlərdən biri Kükü kənd orta məktəbinin məzunu ***Əli Məmmədli***dir. IV ixtisas qrupunu seçən Əli attestat imtahanından 285, blok



imtahanından 382,2 olmaqla, ümumilikdə, 667,2 bal toplayıb. O, orta məktəbin yekun nəticələrinə görə “Qızıl” nişana layiq görülüb. Azərbaycan Tibb Universitetinin ingilisdilli tibb ixtisasını seçən Əli bildirir ki, inamla addımladığı bu yolda valideynlərinin rolu əvəzsizdir. Müəllimlərinin inamını yanıltmadığına, ailəsini bu uğurla qürurlandırdığına görə çox sevinir. O, bir çox olimpiadalarda, intellektual yarışlarda iştirak edib. Gələcəkdə peşəkar həkim olmaq, seçdiyi ixtisasa dərindən yiyələnmək üçün var qüvvəsi ilə çalışacağını, daim axtarışda olacağını deyir.

Şahbuz rayon Badamlı qəsəbə tam orta məktəbini bitirən ***Yaqub Məmmədli*** də tələbə adını qazanmaq yolunda inamla irəliləyir. II ixtisas qrupu üzrə 580 bal toplayan Yaqubun seçimi Azərbaycan Dövlət İqtisad Universitetidir. İngilisdilli iqtisadiyyat ixtisasında təhsil almaq arzusu ilə yaşayan müsahibim nəticələrin elan olunmasını səbirsizliklə gözlədiyini deyir: – Bildiyim suallar idi, rahat şəkildə cavablandırdım. Qətiyyən həyəcanlanmadım, çünki öz biliyimə inanırdım. Qəbul imtahanlarına hazırlaşdığım müddətdə ailəm daim dəstəkçim olub. Universitetdə oxuduğum zaman daha böyük uğurlar qazanıb ailəmin mənə qarşı olan inamını, zəhmətini doğrultmağa çalışacağam. Daim inkişaf yolunda olub, biliklərimi xeyli zənginləşdirəcəyəm.



Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin məzunu ***Orxan Məmmədli*** isə III ixtisas qrupu üzrə 560 bal toplayıb: “Düşünürəm ki, yüksək nəticə göstərmək hər bir abituriyentin arzusudur. Bunun üçün 2 il müddətində böyük həvəslə, məsuliyyətlə çalışmışam. Nailiyyət əldə edəcəyimə inanırdım. Bakı Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsini seçmişəm. Hüquq-mühafizə illərdir, xəyalını qurduğum və gələcəkdə çalışmaq istədiyim sahədir. İnanıram ki, topladığım bal sevərək seçdiyim ixtisasa qəbul olmağıma imkan verəcək. Və beləliklə də, mən gələcəkdə öz arzuma çatacağam.



*Hər bir insana öz etibarlı, inamlı gələcəyini formalaşdırmaq, zəruri bilik və bacarıq əldə etmək üçün elm, təhsil əlverişli imkan yaradan əsas faktorlardan biridir. Gələcəkdəki arzularını reallaşdırmaq yolunda qətiyyətli addımlar atan müsahiblərimizə biz də gələcək təhsil həyatlarında uğurlar arzulayırıq.*

✍ **Sürəyya QƏDİMƏLİYEVA**

# Qafqaz əsiri

*(replika)*

Cənubi Qafqaza köçürüldükləri dövrdən satqınlıqla məşğul olub, özlərinə qahmar toplayan ermənilərin bu dəfə düşdükləri vəziyyət tam bir komediya ssenarisi olmaqla, 55 il bundan əvvəl çəkilmiş və SSRİ kino sənayesində gəlirinə görə 4-cü yeri tutmuş məşhur “Qafqaz əsiri”nin süjetlərini xatırladır. Öz bacısı qızı gözəl Ninanı 20 qoyun və bir sovet soyuducusu əvəzində komxoz sədrinə satan alçaq erməninin, filmin sonunda arxasından duz gülləsi yeyib məhkəmədə stula otura bilməyən həmin komxoz sədrinin, onların başına min oyunlar gətirən Şuriklə məşhur üçlüyün və hətta Şurikin mindiyi tərs heyvanın prototipləri bu gün Xankəndindəki və buradan min kilometrlə uzaqdakı mənfur siyasətçilərin birəbir eyniləridir.



Əlbəttə, komediya janrında çəkdiyi qısametrajlı filmlərlə 1970-ci ildən bəri hamının yaxşı tanıdığı və o dövrün reallıqlarını çox gözəl ştrixlərlə açmağı bacaran görkəmli kinorejissor Leonid Qayday yarım əsr keçəndən sonra onun prototipinin Makron olacağını heç ağlına gətirməzdi. O dövrdə Fransanın başı Afrikadakı əlindən çıxan müstəmləkələrinə qarışdığından bu, yəqin ki, onun diqqətini cəlb edə bilməzdi. Elə indi də Parisdə oturub uzaq Cənubi Qafqazda film ssenarisi yazmağa çalışan Ninanın dayıları bu bədbəxt ermənilərin əldən çıxmaması üçün onların başına torba keçirib, qabaqlarına arpa tökməklə sanki özlərinə beş-on minlik seçki elektoratı toplamaq istəyindədirlər. Amma müsyo Makron yaxşı ssenarist olsa da, bu filmin hələ Aqanbekyanın “Humanite” qəzetinə verdiyi o mənfur araqarışdıran müsahibəsindən başladığını, uzun illər boyu planlaşdırılsa da, 2020-ci ilin 10 noyabrında sona çatdığını unutmamalıdır.

Ermənilər Qafqaza köçürülmə millətdirlər və hər bir köçəri tayfanın da özünəməxsus xüsusiyyətləri vardır. “Erməni” demək, “tərslik” deməkdir. Elə “Qafqaz əsiri” filmində sərgüzəşt axtaran Şurikin mindiyi tərs heyvan da bu gün Arayikin rəngində olmasa da, onun ahəngində olan bir personajdır. Kiminsə dalınca düşüb itaətkarcasına yoluna davam edən bu zavallı heyvan filmin əvvəlindən sonuna qədər tamaşaçıları güldürməklə, özünə yem qazanmağı da bir növ yaxşı bacarır.

Qafqaz üç yüz ilə yaxın müddətdə rusların işğalı altında olub. Sonuncu müvəqqəti rus “sülhməramlısı”nın Qarabağdan əl-ayağı çəkiləndən sonra inşallah ki, müstəqil ölkəmiz rus əsgərinin Cənubi Qafqazdan tamamən çəkiləcəyi ilk ölkə olacaq. “Qafqaz əsiri” filmində də bütün süjet boyunca adamları əyləndirib, amma, əslində, pul qarşılığında muzdlu xidmət göstərən “Qorxaq”, “Axmaq” və “Çoxbilmiş” tipləri isə bu gün təkcə Qarabağda deyil, digər yerlərdəki separatistləri qucağına alıb tüfeyli, əyyaş davranış göstərən rus əsgərlərinin ta özüdür. Bu gün yeri gələndə bir-birinin təyyarəsini belə vuran rus əsgərləri Ukraynada məhv olmaqdansa, Xankəndidə Azərbaycan qoğalını yeməkdən imtina edən gözəl ninalarla əylənmək, ya rüşvət alıb iş düzəltmək, ya da düzələn işləri bərbad edib ara qarışdırmaqla “hərbi xidməti” yola verməyin yolunu tapıblar.

Filmin əsas personajlarından biri Ninanı qaçırıb müdirinə satan komxoz sədrinin sürücüsü olan erməni bu gün Laçın yolunda yaxalanan Xaçaturyan kimi erməni terrorçularının fotosurəti kimi lentə alınıb. Öz bacısı qızını belə pula satan o erməni ilə keçmiş qanlı əməllərinə görə öz qızının gözü qarşısında yaxalanan bu erməninin nə fərqi ola bilər ki?! Kim bilir, hələ neçə ermənini belə aqibət gözləyir. Hər halda kimsə indi bunu dəqiq bilməsə də, Amerikadakı mənfur Kim onları hamıdan yaxşı tanıyır.

Təkcə Xankəndidə yox, Rusiyada da Vardanyanı tanımayan yoxdur. Çirkli pullarını yumaqla dünya maliyyə qurumlarının sanksiyalarına da tuş gəlmiş milyarder Rubik Xankəndidəki oğrulara sığınmaqla sanki pullarının hesabına adam olduğunu zənn edir. Onun da sonunun filmdəki komxoz sədri kimi fiasko ilə nəticələnəcəyini, pullarının batıb, özünün də məhkəmədə rüsvay olacağını indi özü hamıdan yaxşı bilir. Budəfəki filmin ssenarisini kim yazsa da, necə yazsa da, Qafqazın əsl sahiblərindən birinin, onun ən güclü dövlətinin Azərbaycan olduğunu vardanyankimilər unutmamalıdırlar. Ona görə də kubik daşları kimi tez-tez o yana, bu yana çevrilən Rubik nə etsə də, istəyir lap özünü öldürsə də gözəl Ninaya əli çatmayacaq.

O ki qaldı filmin baş qəhrəmanı Şurikə, bu gün Moskvadan Xankəndiyə müvəqqəti təyin olunan generallar da onun kimi sonunda anlayacaqlar ki, macəra üçün gəldikləri Cənubi Qafqaz çoxmillətli olsa da, ruslarsız ən gözəl günlərini yaşaya bilən, hər kəsin öz boyuna görə addım atdığı bir torpaqdır. Qarabağ sizin üçün nə Abxaziya, nə Cənubi Osetiya, nə də Krımdır. Odur ki, siz də Şurik kimi şələ-şülənizi toplayıb, sevimli heyvanınızı da minib gəldiyiniz kimi buradan gedin! Qafqazın əsiri olmayın!

✍ **Əli CABBAROV**

## Elan

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Kitab Evində, həmçinin rayon mərkəzlərində 1-15 sentyabr 2023-cü il tarixlərdə keçiriləcək məktəbli yarmarkasına muxtar respublika əhalisi dəvət edilir.

Məktəbli yarmarkası hər gün saat $9^{00}$-dan $14^{00}$-dək əhaliyə xidmət göstərəcəkdir.

Yarmarkada əhaliyə münasib qiymətlərlə yüksək keyfiyyətdə məktəbli geyimləri və idman formaları, ayaqqabı və məktəbli ləvazimatları təklif olunacaqdır.

Bütün valideynləri və müəllimləri yaradılmış şəraitdən istifadə etmək üçün yarmarkalara dəvət edirik.

***Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
www.serqqapisi.gov.az
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 507